# Leyli olmaq arzumu 20 ildən sonra gerçəkləşdirdim

## Müsahibimiz Azərbaycan Respublikasının Xalq artisti Gülyanaq Məmmədovadır

***- Gülyanaq xanım, demək olar ki, bütün qadın xanəndələrin ən böyük arzusu "Leyli və Məcnun" tamaşasında Leyli rolunu ifa etməkdir. Demək olar ki, siz də bu arzunuza çatdınız. Necə bilirsiniz auditoriya qazana bildinizmi?***

- Leyli olmaq arzumu 20 ildən sonra gerçəkləşdirdim. Nə dərəcədə maraqlı alınıb-alınmamasını mən yox, tamaşaçılar deyə bilərlər. Amma apreldə tamaşaçıların istəyi ilə yenidən biz bu tamaşanı oynayacağıq. Bu da bəyənildiyinin təsdiqidir. Maraqlı odur ki, görkəmli sənətkarımız Mənsum İbrahimovun ilk Leylisi bacım Gülyaz Məmmədova olub. Sonuncusu da hələlik mənəm. Leyli olmağa o qədər hazır idim ki, başqaları aylarla məşqdən sonra səhnəyə çıxırdılarsa, mən üç məşqdən sonra Leyli rolunu ifa etdim. Tamaşaçıların istəyi ilə növbəti gün yenidən tamaşa oynanıldı. Demək olar ki, bir dənə boş yer qalmamışdı. Əlavə stullar gətirilmişdi. Bütün arzusunda olanlara bu xoşbəxtliyin nəsib olmasını arzulayıram.

***-Neçə yaşında valideynləriniz bildilər ki, sizin səsiniz var?***

- Mən gözümü açandan evimizdə çal-çağır eşitmişəm. Atam qara zurna, qardaşım qarmon ifaçısı olub. Anamın, bacılarımın səsi olub, onların zümzümələrini eşidə-eşidə böyümüşəm. 3-4 yaşım olanda köhnə filmlərimizdən xırda mahnılar ifa edirdim. Məktəbdə isə ilk dəfə səsimin olduğunu birinci sinif müəlliməm aşkar edib. "Nargilə" mahnısını "Əlifba" bayramında mənə oxudub. Bundan sonra Gülyazla bir yerdə "Azərbaycan gəncləri" mahnısını oxuduq. O zaman mənim 8, Gülyazın isə 11 yaşı var idi.

***- İstərdim ki, yeni layihələrinizdən danışasınız. Solo konsertiniz olacaqmı?***

- Biz daim yeni layihələr üzərində işləyirik. Fevralın sonunda solo konsertimiz olmalı idi. Ancaq ustad sənətkarımız Kamil Vəzirovun səhhətində bir az problemlər yarandığı üçün planımızı başqa vaxt gerçəkləşdirəcəyik. Amerikaya səfərimiz nəzərdə tutulub. Bizə qabaqcadan danışmaq düşmür. Yaxşı planlarımız çoxdur.

***- Gülyanaq xanım, muğam müsabiqələrində iştirak edən tələbələrinizin ifası sizi qane edirmi? Müsabiqələrdə sizin və Gülyaz xanımın tələbələrinin ifasına münasibətdə haqsız qiymətləndirmə və ya qınaq olubmu?***

- Gülyazın da, mənim də tələbələrim iştirak ediblər. Gülyazın tələbələri həmişə üçlüyə və altılığa düşüblər. Kamilə Nəbiyevanı misal gətirə bilərəm. Üçlüyə düşdü. Hal-hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində mənim tələbəmdir. Ümumiyyətlə, həmin müsabiqədə münsif kürsüsündə əyləşən bütün münsiflər heyətinə böyük məhəbbətim və hörmətim var. Onlar qiymətləndirmə zamanı tələbələrimə az bal veriblərsə, yəqin ki, onlarda bəyənmədikləri nə isə olub. Mən müəllimlik borcumdan çıxmışam. Ola bilər ki, canlı ifa zamanı ürəklərini, səslərini göstərə bilməyiblər. Mən gənclərə olan qınaqlara qarşı çıxmıram, bu, mübarizədir. Qoy münsiflər onları danlasınlar ki, həyatda öz yollarını tapsınlar. Biz də müsabiqələrdə müəllimlərimizdən danlaq götürmüşük. Səhnədə olan ifaçı daim yeni nəsə öyrənməlidir. Mən özüm indi də öyrənirəm.

***- Bacınız Gülyaz xanıma qısqanclıqla və yaxud həsədlə yanaşmısınızmı? Bu günlər mətbuatda sizin bacınızla aranızda bir soyuqluq olduğu qeyd olunur...***

- Əsla elə bir şey yoxdur. Biz əkiz olmasaq da bir-birimizlə nəfəs alırıq. Həmişə onu itirməkdən qorxmuşam. Əgər bir-iki gün səfərlərlə əlaqədar onu görməmişəmsə elə bilmişəm qanadımın biri yoxdur. İnsanların yaxşı xüsusiyyətlərinə həsəd aparmaq olar. Paxıllıq isə pis şeydir. Mən də bacıma gözəl insan olduğu üçün həsəd aparıram. İnsan başqalarının nailiyyətlərinə sevinməlidir. Biz çox mehriban bacılarıq, bir-birimizin uğuruna sevinirik. Hər ailədə söz-söhbət olur. Mübahisə etsək də, heç vaxt küsülü qalmamışıq. Bu gün də əgər nəsə xırda söz-söhbət olursa heç vaxt bu, küsülülüyə yol açmayıb.

***- Bir müddət öncə həyat yoldaşınızdan boşanacağınız haqda xəbərlər yayılmışdı. Bu cür xəbərlər sizə necə təsir edir?***

- Bu cür xəbərlərə əvvəllər əsəbləşirdim, indi gülüb keçirəm. Ailə qurduqdan sonra ayrılmaq ağlımızdan belə keçməyib. Çox gözəl ailəm, yoldaşım, uşaqlarım var. Həyat yoldaşımdan çox razıyam. Hər xırda söz-söhbətə görə ailəni dağıtmaq olmaz. İnsan çalışmalıdır ki, ailəsini qorusun. Hər şey insanın özündən asılıdır. Sənət ailəyə əngəl törətmir. Sənətə




görə ailəni dağıtmaq olmaz.

***- Gülyanaq xanım, neçə illərdir sənətdəsiniz, nə üçün prodüseriniz yoxdur? Bir çox müğənnilər prodüsersiz məşhurlaşmağın mümkünsüzlüyünü qeyd edirlər.***

- Prodüserin əleyhinə deyiləm. Dünyanın hər yerində ifaçılar prodüserlə işləyirlər. Müğənninin prodüseri olanda, onun bütün işlərini görür. Prodüserlə işləyəndə müğənni də rahat olur. O, pis şey deyil. Mən də istəyərəm ki, prodüserlər bütün təşkilati işləri həyata keçirsinlər. Konsertin afişalarından tutmuş biletinə qədər bütün problemlərimi həll etsinlər. Mən ancaq rahatlıqla mahnımı ifa edim. Təəssüf ki, bizdə prodüser məktəbi yoxdur. Mənə çanta, CD daşıyan lazım deyil. Bu işlərlə özüm məşğul olacağamsa, prodüsersiz də keçinərəm.

***-Xarici ölkələrə səfəriniz zamanı bir çox incəsənət nümayəndələri ilə tanış olursunuz. Nə üçün əcnəbi rejissorlara klip çəkdirmirsiniz?***

-Qastrol səfərlərimiz çox olur. Ancaq mənim ən böyük problemim dil problemidir. İngilis dilini bilməməyim ucbatından orada olanda əlaqələr qura bilməmişəm. Ancaq təəssüf etməyə dəyməz. Çünki burada da yaxşı rejissorlarımız az deyil.

***- Köhnə kadrlara baxanda güldüyünüz anlar olubmu?***

- Olub, niyə olmayıb ki?! Köhnə kadrlara baxanda deyirəm ki, kaş bunu geyinməyəydim, saçımı belə etməyəydim. Ancaq o dövrdə həmin geyimlər, saç düzümləri dəbdə idi. O da olub ki, köhnə müsahibələrimi oxuyanda gülmüşəm. Ancaq hər bir vaxtın öz dəbi var. İnsan keçmişinə baxa-baxa daha da təkmilləşdiyini hiss edir.

***- Sizin səhnəyə gəldiyiniz dövrlə müqayisədə bu gün məşhur olmaq daha asandır?***

- Əlbəttə. İndi gənclərin özünü tanıtmaları üçün hər cür şərait var. O zaman belə şeylər yox idi. Maqnitofonu güclə tapıb muğama qulaq asırdıq. Mən indiki gənclərin səhnəyə yol tapmasında heç bir çətinlik görmürəm.

Bu gün muğama dövlət qayğısı yüksək səviyyədədir. Son illər aparılmış məqsədyönlü işlərin nəticəsi olaraq, muğam sənəti bir daha dünya musiqi incisi kimi təsdiqini tapdı. Eyni zamanda gənc xanəndələrə böyük dəstək var. Onların konsertləri həm ölkədə, həm də ölkə xaricində təşkil olunur, albomları hazırlanır, dövlət televiziyalarında çıxışları təşkil olunur. O vaxtlar bütün bunlara çox çətinliklərlə nail olurduq. Tələbələrimə deyirəm ki, sizin üçün bütün şərait yaradılıb. Öz üzərinizdə məsuliyyətlə çalışıb, ləyaqətlə çıxış etmək lazımdır.

***- Bir çox insanların kompleksləri olur. Bəs Gülyanaq xanımın...***

- Heç nəyə kompleksim yoxdur. Əvvəllər var idi, deyirdim məni bu profildən çəkin. Yaxından çəkin, uzaqdan çəkin. Artıq bütün bunlara son qoymuşam. Dərk etdim ki, hər şeyin təbii olması yaxşıdır.

***- Sənət aləmində toylara münasibət bir qədər fərqlidir. Elə müğənnilər var ki, toya getsələr də, bunu danırlar. Sizin buna münasibətiniz necədir?***

- Mənim üçün hər ikisi eynidir. Çünki ikisində də bizə xalq baxır və qiymət verir. Yəni, biz xalqın sənətçisi olduğumuz üçün onların istəyi bizim üçün önəmlidir. Toy canlı səhnədir. Orada heç bir montaj, quraşdırma olmur. Necə oxumağını və səhnə mədəniyyətini görürlər. Ona görə də hər zaman deyirəm ki, toylarda oxumaq daha çətin və məsuliyyətlidir.


✍ Şəmsiyyə Əliqızı,
Tural Əhmədov, (foto)
"İki sahil"